

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104 (23.015)

2 iyun 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Hindistanın ölkəmizdəki səfiri ilə görüşüb



İyunun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana ilə görüşüb.

Ali Məclisin Sədri səfirlə yenidən görüşündən məmnunluğunu bildirdi və bunu əlaqələrin göstəricisi kimi dəyərləndirdi. Azərbaycanın ərazi bütövlüyünün Hindistan tərəfindən beynəlxalq təşkilatlar səviyyəsində dəstəkləndiyini vurğulayan Ali Məclisin Sədri qeyd etdi ki, bu, ölkələrimiz arasındakı yaxşı münasibətlərin nəticəsidir. Ali Məclisin Sədri Azərbaycan-Hindistan əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası tərəfindən səylərin göstəriləcəyini diqqətə çatdırdı.

Səmimi qəbula görə minnətdarlıq edən Sanjay Rana Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ərəfəsində Naxçıvana səfər etdiyini, muxtar respublikada sosial-iqtisadi və mədəni inkişafın şahidi olduğunu bildirdi. Səfir bu il Naxçıvan şəhərində İslam Mədəniyyətinin Paytaxtı və Avropa günləri ilə bağlı keçiriləcək tədbirlərin muxtar respublikanın uğurlu inkişafının nəticəsi olduğunu qeyd etdi, əməkdaşlığın genişləndirilməsinə mühüm əhəmiyyət verdiklərini vurğuladı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana ali təhsil müəssisələrində və Biznes Mərkəzində olub

***Hindistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstəsi qoyub və Heydər Əliyev Muzeyini ziyarət edib.***

Səfir səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. Qonağa ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verilib.

Muxtar respublika haqqında yüksək təəssüratlarını bölüşən diplomat gələcək tərəfdaşlıq məsələlərinin müzakirəsi zamanı universitetlərarası əməkdaşlığın genişləndirilməsində birgə layihələrin əhəmiyyətindən danışıb.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində tələbələrlə keçirilən görüşdə səfir Hindistan-Azərbaycan arasındakı dostluq və yüksək səviyyəli əməkdaşlıq əlaqələrindən danışıb. Diplomat qeyd edib ki, bu iki ölkə arasında beynəlxalq əməkdaşlığın əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Xatırladılıb ki, 1991-ci il dekabrın 26-da Hindistan Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini tanıyıb. Azərbaycan və Hindistan arasındakı tarixi əlaqələrdən bəhs edən səfir qeyd edib ki, bu gün də bu iki ölkə arasında ticarət, iqtisadi, elmi, texnoloji, mədəni sahələrdə əməkdaşlıq durmadan inkişaf edir. Enerji və nəqliyyat sahələrində əlaqələrin əhəmiyyətindən danışan diplomat Şimal-Cənub dəhlizinin Azərbaycan və Hindistan arasında iqtisadi əlaqələri gücləndirəcəyini vurğulayıb.






O qeyd edib ki, gələcəkdə də biz çalışacağıq ki, Azərbaycanla rəsmi, diplomatik, parlamentlərarası, mədəni, idman və digər beynəlxalq əhəmiyyətli sahələrdə əlaqələrimizi daha da gücləndirək və inkişaf etdirək.

Diplomat tələbələrə Hindistanda geniş yayılmış yoqanın insan həyatındakı əhəmiyyətindən bəhs edən mühazirə oxuyub. O, Azərbaycanda yoqa dərslərinin öyrədilməsindən məmnunluğunu bildirib, sağlamlığın qorunmasına birbaşa təsir edən yoqa dərslərinin gələcəkdə Naxçıvan Muxtar Respublikasında da keçirilməsi arzusunu ifadə edib. Səfir vurğulayıb ki, yoqa nə idman, nə də siyasətdir, bu, sadəcə, sağlam həyat tərzidir. İnanıram ki, yoqa sizə sağlam, xoşbəxt həyat bəxş edəcək.

Daha sonra Polşada Beynəlxalq Şivananda Yoqa Vedata Mərkəzində təhsil almış, "Yoqa Şiromani" tituluna və diplomuna sahib, Klassik Yoqa Məktəbinin müəllimi olan Elçin Quliyev yoqa barədə müəllim və tələbələri məlumatlandırıb.

* * *

Səfər çərçivəsində səfir "Naxçıvan" Universitetində də olub. Ali təhsil ocağının fəaliyyəti haqqında geniş məlumat alan diplomat buradakı müəllim və tələbə heyətinə də Azərbaycan-Hindistan arasındakı qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri, Hindistanda geniş yayılmış yoqa haqqında mühazirə oxuyub.

* * *

Naxçıvan Biznes Mərkəzində olan qonağa muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilib. Bildirilib ki, burada 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 37 ailə təsərrüfatında istehsal olunan 17 növdə 112 çeşiddə məhsul, 30 sənətkar tərəfindən hazırlanan 254 əl işi, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.

Vurğulanıb ki, muxtar respublikada yaradılan şərait nəticəsində ərzaq təhlükəsizliyi tam təmin edilib, idxalın həcmi əhəmiyyətli dərəcədə azaldılıb, yeni iş yerləri açılıb. Vaxtilə 15 adda məhsulun istehsal olunduğu Naxçıvan Muxtar Respublikasında bu gün 372 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

**Güntac ŞAHMƏMMƏDLİ**
**Tural AĞAYEV**

Naxçıvan şəhərində aparılan quruculuq işləri muxtar respublika paytaxtının görkəminin müasirləşməsinə, əhalinin

## Quruculuq ünvanlarının sayı çoxalıb



sosial şəraitinin yaxşılaşdırılmasına, yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Son vaxtlarda şəhərdəki ictimai yaşayış binalarının əsaslı təmiri və yeni yaşayış komplekslərinin yaradılması əhalinin mənzil-məişət şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Bu tədbirlər hər bir sakin tərəfindən böyük rəğbətlə qarşılanır.

Cari ildə şəhərimizdə aparılan genişmiqyaslı quruculuq işlərindən Nizami küçəsindəki 34 nömrəli binaya da pay düşüb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən mart ayından başlayaraq binada əsaslı təmir-bərpa işləri görülür. İş icraçısı Aqil Mirzəyevdən aldığımız məlumata görə, hazırda beşmərtəbəli yaşayış binasının fasad hissəsi üzlənir, pəncərələr salınır. Bloklarda suvaq işləri aparılır, pilləkənlərə üzləmə daş vurulur. Binanın elektrik və rabitə xətləri çəkilib, digər kommunikasiya xətlərinin çəkilişi üçün hazırlıq işləri görülür.

**Nail ƏSGƏROV**

## Sığorta fəaliyyətinin təşkili müzakirə edilib

***İyunun 1-də Şərur Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işi sahəsində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.***

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov tədbiri açaraq rayonda sığorta sahəsində görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxışında muxtar respublikamızın müasir iqtisadi və sosial inkişafında sığortanın əhəmiyyətindən bəhs edib. O vurğulayıb ki, sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə qurulması sahəsində 2011-ci il 30 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilmiş müşavirədə verilmiş tapşırıqlar xüsusilə əhəmiyyətli olub.

Bildirilib ki, sığorta işinin genişləndirilməsi məqsədilə muxtar respublikada həyata keçirilmiş tədbirlər nəticəsində vətəndaşların vaxtında sığortalanması təmin olunub, sığorta hadisələri baş verdiyi zaman insanların sağlamlığına, daşınmaz əmlakına, habelə avtomobillərə və kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə görə ödənişlər verilir, bunun vasitəsilə də zərərlərin nəticələri qısa müddətdə aradan qaldırılır.

Qeyd olunub ki, hər bir vətəndaşın rifahının təmin edilməsi üçün ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən gözlənilməz hadisələrdən sığorta təmin olunmalıdır. Bu istiqamətdə işlərin daha da genişləndirilməsinin vacib olduğunu bir daha qeyd edən baş direktor bildirib ki, Şərur rayonunda da sığorta fəaliyyətinin genişləndirilməsi üzrə müəyyən işlər görülüb. Belə ki, ümumilikdə, ötən dövr ərzində



rayonda avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 2679, daşınmaz əmlakın icbari sığortası üzrə isə 4163 sığorta müqaviləsi bağlanılıb.

Baş direktor Şərur rayonunda icbari və könüllü sığorta növləri üzrə görülmüş işləri təhlil edərək qarşıda duran vəzifələrdən də danışıb. Vurğulayıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortası tam şəkildə təmin edilməlidir. Bununla əlaqədar baş direktor nəzərə çatdırıb ki, son dövrlərdə Şərur rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta edilməli olan vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər qalmaqdadır.

Tədbirdə könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bu barədə də danışan baş direktor bildirib ki, böyük aqrar potensialı olan Şərur rayonunda kənd təsərrüfatı sahəsində aparılan sığorta işi burada fəaliyyət göstərən torpaq mülkiyyətçilərinin və fermerlərin istehsal etdikləri məhsullara dəyməsi ehtimal olunan zərərlərin əvəzinin ödənilməsinə təminat verir. Buna görə də bildirilib ki, əkin sahələrinin, meyvə bağlarının, heyvanların sığortalanması məqsədilə fermer və torpaq mülkiyyətçiləri arasında maarifləndirici işlər genişləndirilməlidir.

Sonra Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Zamiq Məmmədov, rayon Dövlət Yol Polisi Bölməsinin rəisi, polis kapitanı Ədalət Şükürov sığorta sahəsində görülmüş işlər barədə məlumat veriblər.

**Əli CABBAROV**



2 iyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günüdür

# Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir

***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən iyunun 2-si hər il ölkəmizdə Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü kimi qeyd edilir.***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmış, ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. Həmçinin 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün qalxma-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş qısa müddətdə həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bununla əlaqədar 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə olmuşdur. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, eləcə də muxtar respublikada aviasiya sahəsində kompleks tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılmış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir. Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını müasir inkişaf mərhələsinə çıxarmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2014-cü ildə hava limanının yeni inzibati binası və 2015-ci ildə "Şərq Terminalı" istifadəyə verilmişdir.

Aerovağzal kompleksinin yenidən qurulması işləri 2016-cı ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə "Qərb Terminalı"nın istifadəyə verilməsi ilə yekunlaşmışdır. Həm "Şərq", həm də "Qərb" terminallarının yenidən qurulması zamanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Beynəlxalq Mülki Nəqliyyat Assosiasiyasının tələb və tövsiyələrinə cavab verən, Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş ən müasir texnologiyalardan, uçuşların və aviasiya təhlükəsizliyini təmin edən avadanlıqlardan istifadə olunmuşdur. Aerovağzal kompleksinin yenidən qurulması illik sərnişin dövriyyəsinin və yükdaşımaların artırılmasında mühüm rol oynamışdır. Hava limanının hər iki terminalında beynəlxalq səviyyəli uçuşların həyata keçirilməsi üçün sərhəd nəzarəti, tranzit sərnişinlər üçün zal, aviasiya təhlükəsizliyi nəzarəti sahələri fəaliyyət göstərir. Terminal binasının birinci mərtəbəsində hərbi qulluqçular üçün zal, tibb məntəqəsi, hər iki mərtəbədə ana və uşaq otaqları istifadəyə verilmiş, digər xidmət sahələrinin fəaliyyəti təmin edilmişdir.








Muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan, Ordubad və Şərur şəhərlərində müasir aviakassa binaları tikilib istifadəyə verilmiş, sərnişinlərin rahatlığı və xidmət səviyyəsi yüksəldilmişdir. Hazırda hava limanının Karqo yük terminalında yenidənqurma işləri aparılır. Hava gəmilərinə xidmət edən yerüstü texnikanın, əl yükü və baqajların yoxlanması üçün texniki vasitələrin sazlığına daim diqqət yetirilir. Qış aylarında muxtar respublikada havaların soyuq və qarlı keçməsinə baxmayaraq, uçuşların intensivliyi və təhlükəsizliyi tərtib olunmuş proqram əsasında təmin edilir.

Müasir infrastrukturun yaradılması və xidmət sahələrinin genişləndirilməsi ixtisaslı kadrlara və mütəxəssislərə olan tələbatı da artırır. Hava limanında bu məsələ diqqətdə saxlanılır, müasir xidmət tələblərinə cavab verən gənclər işə götürülür, əməkdaşların peşəkarlıq səviyyəsi artırılır. Həmçinin daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava gəmilərinə texniki xidmət və başqa bu kimi sahələrin əməkdaşlarının Milli Aviasiya Akademiyasının "Pilotların Hazırlığı Mərkəzi"ndə təşkil olunmuş ixtisasartırma kurslarında iştirakı təmin olunur.

Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri ilə Bakı şəhərinə, beynəlxalq hava xətləri ilə isə Moskva və İstanbul şəhərlərinə uçuşlar həyata keçirilir. Uçuşların təhlükəsizliyinin təmin olunması və sərnişinlərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Beynəlxalq Hava Limanının nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər, uçuşların təhlükəsizliyini artırmaq məqsədilə alınmış yeni maşın və mexanizmlərin yüksək texniki göstəricilərə malik olması sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatında xidmətin hərtərəfli təşkili daha vacibdir. Çünki muxtar respublikaya gələn qonaqlar əsasən hava limanından istifadə edirlər. Hava limanında yaradılan şərait, göstərilən xidmət gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat yaradır. Ona görə də işçilər yaradılan şəraitdən səmərəli istifadə etməli, qurulanları qoruyub saxlamalı, xidməti vəzifələrini öyrənməli, nümunəvi xidmət göstərməlidirlər".***

Kollektiv bundan sonra da fəaliyyətini qarşıya qoyulan vəzifələrin icrası istiqamətində quracaq, sərnişinlərə nümunəvi xidmət göstəriləcəkdir.

***Naxçıvan Beynəlxalq Hava Limanı***

# Torpaqların elektron kadastr uçotu informasiya sisteminin proqram təminatının hazırlanması istiqamətində işlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" təsdiq edilmişdir. Fərmandan irəli gələn məsələlərin icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması işləri təsdiq edilmiş tədbirlər planına uyğun olaraq davam etdirilir.***

Yeni yaradılacaq sistem torpaqların uçotunun müasir tələblərə uyğun aparılmasına, məkan məlumatları infrastrukturunun formalaşmasına, bu sahədə aparılan işlərin texnoloji cəhətdən modernləşdirilməsinə zəmin yaradır. Məqsəd təyinatından və mülkiyyət növündən asılı olmayaraq muxtar respublika üzrə bütün kateqoriyalı torpaqların elektron kadastr uçotuna alınmasını, ərazilərin rəqəmsal xəritələrinin hazırlanmasını, avtomatlaşdırılmış torpaq kadastr informasiya sisteminin və mükəmməl torpaq bankının yaradılmasını təmin etməkdir.

Tədbirlər planına uyğun olaraq sistemə daxil ediləcək məlumatların strukturu öyrənilmiş, məlumatların daxil edilməsi modeli hazırlanmış, proqram təminatının yaradılmasına başlanılmışdır. Komitənin elektron məlumat bazasında olan informasiyaların yeni sistemə miqrasiya edilməsi, məlumatların məlumat modelinin tələblərinə uyğun hazırlanması məqsədilə proqram təminatını hazırlayan icraçı tərəfə mövcud məlumatlardan nümunələr təqdim olunmuşdur. Hazırda torpaqların elektron kadastr uçotu informasiya sisteminin fəaliyyətini təmin edəcək proqram təminatının yaradılması işi davam etdirilir. Artıq icraçı şirkət tərəfindən sistemin ilkin layihəsi hazırlanaraq baxılması üçün komitəyə təqdim olunmuşdur.

Məlumatların yaradılacaq sistemə miqrasiya edilməsi məqsədilə aid mütəxəssislərlə birlikdə muxtar respublika üzrə vətəndaşların qanuni istifadəsində olan və torpaq islahatı zamanı onların mülkiyyətinə verilmiş torpaq sahələrinə və onların mülkiyyətçilərinə dair məlumatlar sistemləşdirilərək vahid formada yığılmışdır. Muxtar respublikanın inzibati ərazi bölgüsünün təsnifatı statistik kodlar üzrə məlumat bazası formasında hazırlanmışdır. Yaradılacaq sistemin daşınmaz əmlakın dövlət reyestrinə inteqrasiya olunması üçün dövlət reyestrində olan məlumatların elektron arxivi çıxarılmış, prosesin avtomatlaşdırılması məqsədilə sınaqlar aparılmışdır. Məlumatların miqrasiya olunması üçün məlumat bazasından və proqram əlavəsindən ibarət sistem hazırlanmışdır. Hazırlanmış proqram əlavəsinin iş prinsipinə komitənin mütəxəssislərinin iştirakı ilə əyani baxış keçirilmişdir.

Proqram əlavəsi vasitəsilə reyestr xəritələrində olan kadastr və reyestr nömrələri əldə olunur. Əldə olunmuş reyestr və kadastr nömrələri coğrafi informasiya sistemi layına köçürülür. Miqrasiya zamanı torpaq sahələri atribut qiymətlərinə görə seçilərək zəruri düzəlişlər edilir. Torpaq sahəsi üzərində tikililər mövcuddursa, həmin obyektlər seçilərək ayrıca lay kimi saxlanılır. Miqrasiya olunmuş torpaq sahələrinin atributlarına müvafiq ərazinin statistik kodu, mülkiyyətçilər haqqında məlumatlar, torpağın keyfiyyət göstəriciləri, torpaqla bağlı dövlət kadastrında saxlanılan məlumatlar və daşınmaz əmlakın dövlət reyestrində üzərində hüquqlar qeydiyyata alınmış torpaq sahələrinə dair məlumatlar əlavə olunur. Son mərhələdə hazır məlumatlar torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsi üçün saxlanılır.

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi işinin başa çatdırılması torpaqların hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasındakı mövcud olan uyğunsuzluqları aradan qaldırmağa imkan verəcəkdir. Bununla yanaşı, torpaqların səmərəli idarə olunması, kadastr uçot işlərinin aparılması, torpaqların kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi, kənd təsərrüfatı ərazilərinin planlaşdırılması işləri təkmilləşdiriləcək, torpaq idarəçiliyində daha mütərəqqi idarəetmə metodları və müasir mexanizmlərin tətbiqinə şərait yaranacaqdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Gənclərin maarifləndirici ekskursiyası təşkil olunub

Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında hazırlanmış Tədbirlər Planının müvafiq bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası aid rayon təşkilatlarının Gənclər birlikləri tərəfindən Ordubad və Culfa rayon gənclərinin Akademik Həsən Əliyev adına Ordubad Milli Parkına maarifləndirici ekskursiyası təşkil olunub.



Əvvəlcə Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Şövqi Əliyev və Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli çıxış edərək tədbirin mahiyyəti haqqında iştirakçılara məlumat veriblər.

Sonra Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının turizm üzrə direktor müavini Davud Abdullayev gənclərə park haqqında ətraflı məlumat verərək bildirib ki, Milli Park 2003-cü il 16 iyun tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun inzibati ərazisində yaradılıb. Parkın yaradılmasında məqsəd ərazidə ayrı-ayrı komponentlərin mühafizəsi, ərazinin özünəməxsus iqlim, relyef və digər fiziki-coğrafi xüsusiyyətlərə malik olması, burada müxtəlif növ heyvanların, o cümlədən endemik növlərin qorunub saxlanması ilə yanaşı, ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji maarifləndirmək, turizm üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Əsasən, ərazidə boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli, dağ-çəmən torpaqlar yayılmışdır. Naxçıvan Muxtar Respublikasında 62-yə qədər məməli heyvan növünə və ya yarımnövünə təsadüf edilir ki, bunlardan 32 növ və ya yarımnövə Zəngəzur Milli Parkının ərazisində rast gəlinir. Muxtar respublika ərazisində bitən 110 növ ali və nadir bitkidən 77 növü Milli Parkın ərazisində mövcuddur ki, bu bitkilərdən bir çoxunun adı "Qırmızı kitab"a daxil edilib.

Gənclər parkın ərazisində yerləşən fauna və flora muzeyi ilə tanış olublar. Ekskursiyada 30-a yaxın gənc iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub

***İyunun 1-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilmişdir.***

Tədbir iştirakçıları əvvəlcə istedadlı uşaqların əl işlərindən və rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov tədbirdə çıxış edərək demişdir ki, uşaqların fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər ruhda tərbiyəsi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə uşaq bağçaları, ümumtəhsil məktəbləri, məktəbdənkənar təhsil müəssisələri, uşaq musiqi məktəbləri tikilərək və ya yenidən qurularaq uşaqların istifadəsinə verilmişdir. Ümumtəhsil məktəblərində maddi-texniki baza gücləndirilmiş, elektron təhsilin tətbiqi genişlənmiş, zəngin kitabxana fondları yaradılmışdır. Bütün bunlar isə tədrisin keyfiyyətini artırmış, uşaqların bilikli, yüksək dünyagörüşə malik vətəndaş kimi formalaşmasına geniş imkanlar yaratmışdır.



Qeyd olunmuşdur ki, xüsusi yaradıcılıq potensialı və qabiliyyəti ilə seçilən uşaqlar da diqqətdə saxlanılmış, istedadlı uşaqların adı “Gənc istedadların “Qızıl kitabı”na yazılaraq onlara xüsusi təqaüdlər verilir. Uşaqların istifadəsinə filarmoniya və teatrlar, kitabxana və yaradıcılıq mərkəzləri, idman və şahmat məktəbləri verilmişdir. Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların da hərtərəfli qayğı ilə əhatə olunduğunu, onların təhsilə cəlbi, cəmiyyətə inteqrasiyası və reabilitasiyasının diqqət mərkəzində saxlanıldığını bildirən Rəhman Məmmədov uşaqları təbrik etmiş, onlara təhsillərində uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirmişdir ki, bu gün muxtar respublikamızda dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Muxtar respublikada 215 ümumtəhsil məktəbi, 26 uşaq musiqi məktəbi, 21 məktəbəqədər, 36 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir ki, onların da əksəriyyəti müasir şəraiti olan binalarla təmin edilmişdir. Ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, 87 faizi internetə qoşulmaqla, hər 11 şagird 1 kompüterlə təmin olunmuşdur. Bu gün uşaqların peşə təhsilinə cəlbi də qarşıda duran əsas vəzifələrdəndir. 2017-2018-ci tədris ilində 3500-dən çox uşaq maraqlarına uyğun peşə və ixtisaslara yönləndirilmişdir.

Sonra tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təhsil, idman, incəsənət nominasiyaları üzrə ilin ən yaxşı 25 istedadlı uşağına hədiyyələr və fəxri fərmanlar təqdim olunmuşdur.

Tədbirin bədii hissəsində muxtar respublikada fəaliyyət göstərən məktəbdənkənar tərbiyə müəssisələrinin, musiqi məktəblərinin, folklor qrupları kollektivlərinin, o cümlədən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansambllarının, Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçasının balaca fidanlarının çıxışları olmuşdur.

**Səbuhi HƏSƏNOV**

# Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınmışdır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərindəki Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınmış, sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilmişdir.***





İyunun 1-də bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin reabilitasiyası və cəmiyyətə inteqrasiyası ilə bağlı ardıcıl tədbirlər görülür. Ötən dövrdə bərpa mərkəzləri yeni tibbi avadanlıqlarla və xüsusi nəqliyyat vasitəsi ilə təmin edilib, məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzi istifadəyə verilib. Həmçinin defektoloji xidmətin əhatə dairəsini genişləndirmək məqsədilə Şərur və Ordubad şəhərlərində təlim-bərpa otaqları yaradılıb, əmək terapiyası, artterapiya, multisensorlu terapiya, görmə qabiliyyəti məhdud şəxslər üçün audiokitabxana xidmətləri fəaliyyətə başlayıb. Bərpa mərkəzlərinə yeni tibbi avadanlıqların alınması, müvafiq kateqoriyadan olan uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün əyləncəli oyun sahəsinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Sonra tədbirdə iştirak edən uşaqlara hədiyyələr təqdim edilib.

Valideynlər yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.



Qeyd olunub ki, attraksionların yerləşdiyi ərazidə abadlıq işləri aparılıb, sahəyə xüsusi elastik örtük vurulub. Ərazidə 18 yaşından yuxarı sağlamlıq imkanları məhdud şəxslər üçün idman avadanlıqları da quraşdırılıb.

Yeni alınan tibbi avadanlıqlar mərkəzi və periferik sinir sistemi ilə əlaqəli hərəkət pozğunluqlarının, venoz və limfa sistemində olan durğunluqların müalicəsində, habelə dayaq-hərəkət aparatının travmatik xəstəliklərinin bərpasında istifadə olunacaqdır. Əlillərin Bərpa Mərkəzində bu məqsədlə yeni fizioterapiya otağı qurulub. Mərkəzdə “Şorsu” palçığı və “Darıdağ” arsenli suyunun tətbiqi üçün yeni müalicə otaqları da yaradılıb. Həmçinin burada müalicəvi bitki vannalarının da tətbiqi nəzərdə tutulur. Vannalarda sinir sistemini sakitləşdirici, əzələ gərginliyini azaldan və əzələ tonusunu yüksəltmək kimi xüsusiyyətlərə malik bitkilərdən istifadə olunacaqdır. Həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiya imkanlarını daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

# Turizm iqtisadi artımda mühüm katalizatordur

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafına ciddi diqqət göstərilməkdədir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilmişdir. Bu gün həmin sahə sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevrilmişdir. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Hazırda Naxçıvan Muxtar Respublikasında təsərrüfat fəaliyyətinin əsas dairəsi kimi turizm böyük əhəmiyyət kəsb edir və bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Turizm insanların, bütövlükdə, cəmiyyətin maraqlarının ifadəçisi, mikro və makro səviyyələrdə gəlirlərin mənbəyi kimi çıxış edir. Bu sahə əməktutumlu fəaliyyət növü olduğundan əlavə iş yerlərinin açılmasında mühüm rol oynayır. Bundan əlavə, infrastrukturun, yerli sənayenin və xalq yaradıcılığı sahələrinin inkişaf etdirilməsinə şərait yaradır. Digər tərəfdən, turizm iqtisadiyyatın əsas aparıcı sahələri olan nəqliyyat və rabitə, tikinti, kənd təsərrüfatı, istehlak mallarının istehsalı və sair sahələrə güclü təsir göstərir. Bununla da, sosial-iqtisadi inkişafın özünəməxsus katalizatoru kimi çıxış edir.

Məsələn, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə muxtar respublikada sosial-iqtisadi inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi bir il öncəyə nisbətdə 1,7 faiz artaraq 2 milyard 467 milyon 422 min 400 manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalının həcmi 2,1 faiz artaraq 5581,1 manat olmuşdur. Həmin dövrdə muxtar respublikaya ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 390 minə yaxın turist gəlmişdir ki, bu da 2014-cü ildəki göstəricidən 3,1 faiz çoxdur. 2017-ci ildə isə ümumi daxili məhsul istehsalı 2 milyard 701 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun dəyəri əvvəlki ilə nisbətən 3,6 faiz artaraq 5 min 990 manat olmuşdur. Ötən il muxtar respublikaya, ümumilikdə, 413 min 357 turist gəlmişdir ki, bu da 2016-cı ildəki göstəricidən 2,5 faiz və ya 10 min 82 nəfər çoxdur.

2018-ci ilin ilk rübündə muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 99 min 248 turist gəlmişdir ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur. Xatırladaq ki, bu dövrdə ümumi daxili məhsulun həcmi 524 milyon 186 min manatdan artıq olmuşdur. Bu da bir il öncəki müvafiq göstəricidən çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artmışdır.

İqtisadiyyat nöqteyi-nəzərindən turizm iqtisadi kompleksdən ibarətdir. Onun inkişafı daha çox təsərrüfat prosesləri və münasibətləri ilə izah edilir. Bu baxımdan turizm, yuxarıda da qeyd etdiyimiz kimi, sürətlə inkişaf edən ölkələrin iqtisadi artımında mühüm katalizator rolunu oynayır. Çünki turistlər səfərdə olduqları bölgələrdə yerli məhsulları almaqla və xidmətlərdən istifadə etməklə həm yerli istehsalı artırır, həm də o bölgələrdə yeni iş yerlərinin yaradılmasına təkan vermiş olurlar. Eyni zamanda daxili turizmin inkişafında beynəlxalq təcrübənin öyrənilməsi bu sahədə müsbət meyillərin qazanılmasına öz təsirini göstərir. Məhz bu amil nəzərə alınaraq muxtar respublikanın sahibkarları beynəlxalq və daxili turizm sərgilərində fəal iştirak edir, bu sərgilərdə qədim diyarın turizm potensialını nümayiş etdirirlər. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, ötən dövrdə Rusiya, Çexiya, Almaniya, Türkiyə, Gürcüstan, Belarus, İran, Ukrayna, Fransa, Finlandiya, Latviya, İtaliya, Macarıstan və Polşa kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 50-dən çox beynəlxalq tədbirdə muxtar respublikadan sahibkarlıq subyektlərinin 300-dən çox nümayəndəsinin iştirakı təmin edilmişdir. Muxtar respublikanın bu cür beynəlxalq tədbir və sərgilərdə iştirakının əhəmiyyəti ondan ibarətdir ki, sərgi iştirakçıları Naxçıvanın turizm potensialı barədə ətraflı məlumatlandırılır, turizm mütəxəssisləri arasında təcrübə mübadiləsi aparılır.

Ümumdünya Turizm Təşkilatının ekspertləri müəyyən etmişlər ki, ölkədə turizmin inkişaf tendesiyası ilə onun iqtisadi vəziyyəti arasında sıx əlaqə mövcuddur. Səyahətlərin dinamikası isə ölkədə olan iqtisadi vəziyyətə çox həssasdır. Beynəlxalq statistika göstərir ki, son bir neçə il ərzində beynəlxalq səyahətlər və onlardan əldə edilən gəlirlər dünyanın bütün regionlarında artmışdır. Bu isə paralel olaraq dünya ölkələri arasında daha çox turist cəlb etməyin yollarını ön plana çıxarır, deməli, həm də rəqabəti artırır. Bu rəqabətə davamlılığı təmin edən ən vacib amil isə turistlər üçün lazımi imkanların daha əlçatan olmasıdır. Bu gün muxtar respublikamız beynəlxalq turizmdə yeni səyahət marşrutu sayıldığından, Naxçıvanın təbliğinə daha çox ehtiyac duyulur. Bu mənada, muxtar respublikada keçirilən beynəlxalq tədbirlərin əhəmiyyəti, eyni zamanda xaricdə təşkil edilən beynəlxalq sərgilərdə yerli məhsulların təbliği, ixrac məhsulların həcminin artırılması və daha çox ölkələrlə iqtisadi əlaqələrin qurulması, investisiya mühitinin səmərəliliyinin daha da artırılması kimi amillərin əvvəlki dövrlərdə olduğu kimi, yenə də diqqət mərkəzində saxlanılması öz aktuallığını qoruyur.

Sevindirici haldır ki, bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi, bu gün Azərbaycanda, eləcə də muxtar respublikamızda turizm və xidmət sferası iqtisadi inkişafın prioritet istiqaməti kimi müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı” isə turizm sektoruna kompleks yanaşmanı ortaya qoymuş, eyni zamanda proqramın icrası bu sahədə görülən işlərin davamlılığının təmin edilməsinə geniş imkanlar açmışdır. Ümumilikdə isə həm müxtəlif dövrlərdə qəbul edilmiş dövlət proqramları, həm də muxtar respublikanın aidiyyəti dövlət qurumları qarşısında qoyulmuş vəzifə və tapşırıqlar, eyni zamanda bu sahənin inkişaf etdirilməsində vətəndaş amilinin ön plana çəkilməsi yaxın gələcəkdə turizmdə mühüm nəticələrin əldə olunacağına böyük ümidlər yaradır.

**S.HƏSƏNOV**

## Tikintidə təhlükəsizliyin təmin edilməsi diqqət mərkəzində saxlanılır



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində obyektin tikintisinə icazə verilməsi üzrə icraat, işçi layihə sənədlərinin tikinti üçün layihə sənədləri sistemi standartlarının tələblərinə uyğun işlənilməsi, tikinti layihələrinin ekspertizadan keçirilməsinin və tikintiyə nəzarətin məqsədi, qazanxanaların layihələndirilməsi və quraşdırılması, tikinti obyektlərində yanğın təhlükəsizliyi qaydaları ilə bağlı tədbir keçirilib.

Tikinti təşkilatları nümayəndələrinin, yerli icra hakimiyyəti orqanlarının baş memarlarının və layihəçilərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov muxtar respublikada aparılan tikinti-quruculuq, abadlıq-bərpa işlərindən danışıb. Çıxışda tikinti işlərinin sürətlə inkişaf etdiyi bir dövrdə bu sahədə təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən və qarşıya qoyulmuş vəzifələrdən bəhs olunub.

Nazirliyin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımov çıxışında qeyd edib ki, qanunvericiliyə əsasən yerli icra hakimiyyəti orqanı tikintiyə icazə icraatı çərçivəsində sənədlər hazırlandıqdan sonra tikinti layihələrinin ekspertizadan keçirilməsi üçün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinə göndərməli və həmçinin tikintiyə icazə verən yerli icra hakimiyyəti orqanı icazə barədə qərarı və xüsusi nişanı sifarişçiyə təqdim etdikdən sonra 3 iş günü müddətində həmin obyektin tikintisinə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək üçün bu barədə məlumat verməlidir. Layihə sənədlərinin tərtibat səviyyəsi müvafiq dövlət standartlarının tələblərinə cavab verməlidir.

Vurğulanıb ki, hazırda Azərbaycan Respublikası ərazisində qüvvədə olan 45 ədəd tikinti üçün layihə sənədləri sistemi standartları mövcuddur.

Məruzə ətrafında müzakirələrdə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin dövlət ekspertiza mərkəzinin sektor müdiri Şəfaq Cəfərovanın və tikinti müfəttişliyi sektorunun baş məsləhətçisi Tural Hüseynovun, həmçinin nazirliyin Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin texniki tənzimləmə işinin təşkili sektorunun müdiri Aydın Quliyevin, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun çıxışları olub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

*Bu günlərdə Türkiyə Cümhuriyyətinin Əskişəhər Anadolu Universitetində "100-cü ilində Azərbaycan Cümhuriyyəti" beynəlxalq konfrans keçirilib.*

## "Naxçıvan" Universiteti beynəlxalq konfransda təmsil olunub

Konfransda "Naxçıvan" Universitetini İdarəetmə fakültəsinin müəllimi Murad Sevdimalıyev təmsil edib. Onun "Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafında bank sektorunun rolu və iqtisadiyyatda bank kreditlərinin sahələr üzrə istiqamətləri" mövzusunda məruzəsi konfransda maraqla qarşılanıb. Muxtar respublikanın iqtisadi inkişafı, bu prosesdə bankların rolu, bank kreditlərinin inkişafdakı təsir dairəsi gənc tədqiqatçının məruzəsində elmi və statistik təhlillər ilə təqdim olunub.

Məlumat üçün bildirək ki, konfransda iştirak etmək üçün müraciət edən 13 ölkədən olan 542 tədqiqatçı arasından elmi yeniliyi ilə seçilən 60 məqalə qəbul edilmişdi.

Konfrans çərçivəsində elmi əməkdaşlıqla yanaşı, gələcəkdəki çərçivəli münasibətlərə dair bir neçə görüş də olub. Belə ki, "Naxçıvan" Universitetinin təmsilçisi Əskişəhər Azərbaycanlılar Dərnəyində və Türk Dünyası Araşdırmalar Mərkəzində olub, dərnək rəhbəri Cavid Aydın və mərkəzin rəhbəri Mehmet Topal ilə görüşüb, universitet haqqında jurnalı və digər hədiyyələri təqdim edib. Görüş zamanı qarşılıqlı əməkdaşlıq barədə bir sıra müzakirələr həyata keçirilib və müxtəlif mövzularda fikir mübadiləsi aparılıb.

**Nuray ƏSGƏROVA**

## Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş humanitar tibbi aksiyalar keçirilib

***Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası Şərur Rayon Mərkəzi Xəstəxanasında humanitar aksiya keçirib. Bu məqsədlə yüksəkixtisaslı həkimlərdən ibarət briqada yaradılıb. Mərkəzi Uşaq Xəstəxanası baş həkiminin müalicə işləri üzrə müavini İlkay Əliyeva bildirib ki, aksiyanın əsas məqsədi aztəminatlı ailələrdən olan uşaqlar arasında göz xəstəliklərinin profilaktikası və müalicəsini həyata keçirməkdir.***



Səyyar aksiyada yerli tibb işçiləri ilə birgə 40 uşaq tibbi müayinədən keçirilib. Həkimlər tərəfindən görmə orqanı xəstəlikləri – gözün refraktiv qüsurları, torlu qişa xəstəlikləri, şəkərli diabetin göz fəsadları, çəpgözlük, görmə orqanının zədələri, iltihabi xəstəliklərin diaqnostika və müalicəsi aparılıb. Dərin müayinələrə ehtiyacı olan 3 nəfər Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunub.

Aksiya iyunun 1-də Mərkəzi Uşaq Xəstəxanasında Naxçıvan şəhərindən dəvət olunmuş məktəblilər arasında davam etdirilib. Aztəminatlı ailələrdən olan 45 uşaq göz xəstəliklərinin profilaktikası və müalicəsinə cəlb olunub.

* * *

Kəngərli Rayon Mərkəzi Xəstəxanasında da 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş humanitar tibbi aksiya keçirilib. Bu məqsədlə Naxçıvan Muxtar Respublika Xəstəxanasında cərrahlardan ibarət həkim briqadası yaradılıb. Humanitar aksiya zamanı aparılan cərrahi əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr palatalara köçürülüb.

Valideynlərdən Qıvraq qəsəbəsindən Sevil Əsgərova, Qarabağlar kəndindən Telli Məmmədova, Rövşanə Quliyeva, Şahtaxtı kəndindən Ziya Məmmədov övladlarının ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunduqlarına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

Aksiyada iştirak edən valideynlər arasında ürək-damar, yoluxucu, dərizöhrəvi, şəkərli diabet, onkoloji, ginekoloji və digər xəstəliklər barədə səhiyyə maarifi işləri də aparılıb.

Belə aksiyaların ilboyu digər rayonlarda da keçirilməsi nəzərdə tutulur.

**Hüseyn ƏSGƏROV**

## Uşaqlar üçün səhərcik

Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional Tədris Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün səhərcik təşkil edib.

Tədbirdə kitabxana əməkdaşları uşaqlarla kitablar oxuyub, nağıllar, tapmacalar söyləyib və onlarla müxtəlif oyunlar oynayıblar.

Uşaqlar kitabxanaçıların hədiyyə etdikləri uşaq jurnallarından şəkillər çəkib rəngləyiblər.

Tədbir iştirakçıları kitabxananın 2016-cı ildən mərkəzdə yaradılan bölməsində "Uşaq dünyası" adlı kitab sərgisində yeni çap edilmiş uşaq ədəbiyyatları ilə tanış olublar.

Sonda uşaqlara bayram sovqatları paylanıb, onlarla xatirə şəkilləri çəkdirilib.

**Xəbərlər şöbəsi**

## Narkotik qaçaqmalçılığı üzrə daha bir fakt aşkarlanıb

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarının əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində narkotik qaçaqmalçılığına yönəlmiş daha bir cəhdin qarşısı alınıb. Faktla bağlı araşdırma zamanı məlum olub ki, Azərbaycan Respublikası vətəndaşı, 1984-cü ildə Lənkəran şəhərində doğulmuş Bakı şəhər sakini Həmidoğlu Taleh Əli oğlu əldə etdiyi narkotik vasitəni gizli yolla Naxçıvana keçirmək istəyib.

Ondan 71 bükümdə ümumi çəkisi 178,9 qram olan narkotik vasitə – heroin və 15 bükümdə ümumi çəkisi 14 qram metamfetamin aşkarlanaraq götürülüb. Xatırladaq ki, metamfetamin "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələr"in birinci siyahısına daxil edilib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2 (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) maddəsi ilə cinayət işi açılıb.

**Rahil TAHİRLİ**
**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi *vakant olan orta və böyük rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında orta və böyük rəis heyəti üzrə 53 vakant vəzifənin komplektləşdirilməsi məqsədilə keçiriləcək müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası tərəfindən, müsahibə test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçılarla Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və pedaqoji ixtisaslar üzrə təhsil almış (azı 2 il pedaqoji staja malik olan), Azərbaycan dilini sərbəst bilən, boyu 170 santimetrdən aşağı (qadınlar üçün 160 santimetr), yaşı isə 30-dan yuxarı olmayan, müddətli həqiqi hərbi xidmət keçmiş, fiziki cəhətdən sağlam, özü və yaxın qohumları məhkum olunmamış, yaşayış yeri üzrə Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətdən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq istəyən şəxslər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyasına aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *anket;*
- *tərcümeyi-hal;*
- *şəxsiyyət vəsiqəsi;*
- *müvafiq ali təhsili haqqında diplom;*
- *hərbi bilet (kişilər üçün);*
- *əmək kitabçası (olanlar üçün);*
- *9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil.*

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır. Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

Sənədlərin qəbulu 2018-ci il iyun ayının 4-dən iyul ayının 4-dək həftənin iş günləri saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir.

*Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160)*

## Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında orta və böyük rəis heyəti üzrə müsabiqəyə elan olunan vakant vəzifələrin siyahısı

- Polis sahə inspektoru – 22 yer (hüquqşünas)
- Əməliyyat müvəkkili – 6 yer (hüquqşünas)
- Müstəntiq və təhqiqatçı – 2 yer (hüquqşünas)
- Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektor – 3 yer (pedaqoji, maarif, humanitar və sosial istiqamətlər)
- Post-patrul xidmətinin komandiri – 4 yer (hüquqşünas və ya hərbi)
- Məsul növbətçi – 4 yer (hüquqşünas)
- Təşkilat-inspeksiya, uçot-qeydiyyat və statistika işləri qrupunun baş inspektoru – 2 yer (hüquqşünas)
- Kadr və şəxsi heyətlə iş üzrə baş inspektor – 2 yer (hüquqşünas, maarif, humanitar və sosial istiqamətlər)
- Pasport-qeydiyyat və şəxsiyyət qrupu üzrə baş inspektor – 3 yer (hüquqşünas)
- Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsinin axtarış üzrə inspektoru – 1 yer (hüquqşünas, nəqliyyat vasitələrinin texniki istismarı, yol hərəkətinin təşkili, nəqliyyatda daşınmaların və idarəetmənin təşkili)
- Yol-patrul xidmətinin taqım komandiri – 3 yer (hüquqşünas, nəqliyyat vasitələrinin texniki istismarı, yol hərəkətinin təşkili, nəqliyyatda daşınmaların və idarəetmənin təşkili)
- Mühafizə Şöbəsinin taqım komandiri – 1 yer (hüquqşünas və ya hərbi).


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 409